***Son** dövrlərdə Azərbaycan dilçilik elminin öz dəyərli tədqiqatları və orijinal yaradıcılıq üslubu ilə seçilən nümayəndələrindən biri də ADPU-nun Müasir Azərbaycan dili kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Buludxan Xəlilov idi. Təəssüf ki, 40 gün əvvəl o, sevimli ailəsini, doğma kollektivini, ona dərin hörmət bəsləyən tələbələrini və dostlarını əbədi tərk edərək yaddaşlara köçdü.*

# Dəyərli insan, görkəmli alim

Buludxan Xəlilov 25 iyul 1966-cı ildə Qərbi Azərbaycanın Ağbaba elində Amasiya rayonunun Ellərkənd kəndində anadan olmuşdur. 1990-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU-nun) filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdi. Tələbəlik illərində Cəfər Cabbarlı təqaüdü ilə oxumuş, təhsilini fərqlənmə diplomu ilə bitirdikdən sonra gənc mütəxəssis kimi filologiya fakültəsinin Müasir Azərbaycan dili kafedrasında laborant vəzifəsində saxlanılmışdı.

1994-cü ildə müsabiqə yolu ilə Müasir Azərbaycan dili kafedrasında müəllim seçilmiş, iki il sonra dosent, 2001-ci ilin iyul ayından professor vəzifəsində işləmişdi. 2006-2018-ci illərdə filologiya fakültəsinin dekanı olan Buludxan müəllim 2001–2011-ci illərdə ADPU-nun Dədə Qorqud elmi-tədqiqat laboratoriyasına, 2018-2021-ci ilərdə Müasir Azərbaycan dili kafedrasına rəhbərlik etmişdir.

Professor B.Xəlilovun elmi fəaliyyəti çoxşaxəli, geniş və əhatəli idi. Onun 400-dən çox elmi, elmi-publisistik əsəri çap olunmuşdur. Bunlardan əlavə, görkəmli alim 28 monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir.

Tək Azərbaycan dilçiliyinin deyil, ümumən türkoloji dilçiliyin ən müasir problemləri onun elmi yaradıcılığının əsasını təşkil edir. 1999-cu il iyunun 9-da – 33 yaşında “Azərbaycan dilində feillərin fono-semantik inkişafı” mövzusunda doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır.

B.Xəlilovun elmi yaradıcılığının istiqamətlərindən biri də dilimizin tarixi ilə bağlıdır. O, “Azərbaycan dilində təkhecalı feillərin əsasında duran ilkin köklərin fono-semantik inkişafı”(1995), “Azərbaycan dilində ikihecalı feillərin fono-semantik inkişafı”(1996), “Feillərin ilkin kökləri”(1998) kitablarında dilimizdə feillərin təşəkkül etdiyi ilkin kökləri bərpa etmiş və onların bir çoxunu digər türk dilləri ilə müqayisə edərək maraqlı elmi nəticələr çıxarmışdır. Bu kitablarda amorf quruluşlu ilkin köklərin sinkretikliyi və onların amorfluqdan təkamül edərək iltisaqi quruluşa yiyələnməsi prosesi də tədqiqata cəlb olunmuşdur.

Professor B.Xəlilovun elmi yaradıcılığının mühüm istiqamətlərdən biri də türkologiyanın tarixi ilə bağlıdır. Onun “Birinci Beynəlxalq Türkoloji qurultay”(1999), “Türkologiyanın intibah dövrü”(2001), “Türkologiyaya giriş”(2006) kitabları bu sahəyə aid ən dəyərli araşdırmalar sırasındadır. Həmin kitablarda XIX əsrdən başlayaraq XX əsrin 30-cu illərinə qədərki mərhələdə milli türkologiyamızın ən vacib məsələlərinə geniş yer verilir. O, bu dövrdə yaşayıb-yaratmış görkəmli dilçi alimlərimizin fəaliyyətinə obyektiv qiymətləndirir.

Professor B.Xəlilovun elmi fəaliyyətinin mühüm nailiyyətlərindən biri də ana dilimizin müasir problemlərinin araşdırılması və tədrisi ilə bağlıdır. Bu mənada “Azərbaycan dili”(VI-VII siniflər üçün dərslik, 2003), “Müasir Azərbaycan dilinin morfologiyası. I hissə”(2000), “Müasir Azərbaycan dilinin morfologiyası. II hissə” (2003), “Azərbaycan dili: dünən, bu gün”(2004), “Müasir Azərbaycan dili: fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya”(2007), “Müasir Azərbaycan dilinin leksikologiyası” (2008), “Müasir Azərbaycan dilinin morfologiyası (2010). “Müasir Azərbaycan dilinin sintaksisi” (2017) kitabları dərslik və dərs vəsaitləri kimi olduqca dəyərlidir. Bu kitablarda qrammatika, qrammatik quruluş, kök,



şəkilçi, nitq hissələrinin təsnifatı kimi problemlər geniş şərhini tapmışdır.

Dilçiliyin mühüm sahələri ilə bağlı bakalavr və magistr hazırlığı səviyyələri üçün tədris proqramlarının hazırlanması da onun elmi-pedaqoji fəaliyyətində mühüm yer tutur. Onun “Türk dillərinin müqayisəsi”(2002), “Müasir Azərbaycan ədəbi dili”(2002), “Müasir Azərbaycan ədəbi dilinin fonetikası”(2002), “Azərbaycan dilinin tarixi”(2005), “Azərbaycan dilinin müasir problemləri”(2005), “Azərbaycan dili elminin tarixi və metodologiyası”(2005) proqramları dilçilik elminin son elmi nailiyyətlərinə əsaslanaraq tərtib olunmuşdur.

Professor B.Xəlilov ölkəmizdə və xaricdə (Ufa, Ankara, Aşğabad və s.) dilçilik problemlərinə həsr olunmuş elmi konfranslarda məruzələr etmişdir. O, ADPU-da I Türkoloji qurultayın 75 və 80 illiyi ilə bağlı konfransın təşkilatçısı olmuşdur. Professor həm də elmi əsərlərin çapı üçün əlindən gələni əsirgəməmiş, ADPU nəşriyyatında çap olunan “Filologiya məsələlərinə dair tematik toplu” və “Dədə Qorqud” elmi məcmuələrinin redaktoru, “Pedaqoji Universitet Xəbərləri, humanitar elmlər seriyası” elmi jurnalının isə məsul katibi olmuşdur. Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin, Dövlət Dil Komissiyasının üzvü idi. 2003-2004-cü illərdə AAK-ın filologiya ixtisası üzrə ekspert şurasının, 2006-2013-cü illərdə Bakı Dövlət Universitetində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru alimlik dərəcəsi verən müdafiə şurasının üzvü olmuşdur. Təhsil sisteminin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif edilib. Azərbaycan Yazıçılar Birliyinin VII qurultayının nümayəndəsi olub, Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki, Nazirlər Kabinetinin qərarı ilə Respublika Terminologiya Komissiyasının üzvü seçilib, Beynəlxalq Rəsul Rza mükafatına layiq görülüb.

Dəyərli insan, görkəmli alim Buludxan Xəlilovun əziz xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır. Allah rəhmət eləsin!

***Fərrux RÜSTƏMOV,***
***pedaqoji elmlər doktoru,***
***professor, Əməkdar elm xadimi***